# Təbib

**Təsisçi:** Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 02 (1685) 31 yanvar 2019 - cu il Qiyməti 50 qəpik


# Azərbaycan Prezidenti regionların 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramını təsdiq edib

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.**



Fərmanda bildirilir ki, Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib. Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaradıb.


**BU SAYIMIZDA**

## BÖYÜK ELMİ ŞURADA






Görkəmli alimin 90 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib 3

Türkiyənin "Memorial Sağlık Grubu» nümayəndələri ilə görüş olub 4



DST: Qeysəriyyə kəsiyi əməliyyatı çox vaxt tibbi ehtiyac olmadan aparılır 3



Bədənini isti armatur deşən xəstəni həkimlərimiz sağaldıblar 5



"Anadangəlmə ürək qüsurları" mövzusunda seminar 5

# BÖYÜK ELMİ ŞURADA

**Yanvarın 30-da ATU-nun Böyük Elmi Şurasının 2019-cu ildə keçirilən ilk yığıncağını açan universitetin rektoru, professor Gəray Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdıraraq hesabat məruzəsi ilə çıxış etmək üçün sözü beynəlxalq əlaqələr üzrə prorektor, dosent Nadir Zeynalova verdi.**

Hesabat dövründə universitetin beynəlxalq əlaqələrinin mövcud durumundan danışan prorektor 2018/2019-cu tədris ilində hazırlıq kursuna əcnəbi dinləyicilərin qəbulunun yeni qaydalarla aparıldığını dedi. O, namizədlərin müraciətlərinin elektron şəkildə, internet vasitəsilə qəbul olunduğunu, bunun üçün ATU-nun internet saytına bağlı admission.amu.edu.az portalında qeydiyyatdan keçərək şəxsi hesab yaratdıqlarını söyləyərək yeni qaydaların üstünlüklərindən söhbət açdı.

Hazırlıq kursuna qəbul olunan əcnəbi dinləyicilərin və hər iki müalicə-profilaktika, stomatologiya, əczaçılıq fakültələrində təhsil alan əcnəbi tələbələrin statistikasını təqdim edən N.Zeynalov bildirdi ki, 2018/2019-cu tədris ili üçün qəbul ediləcək dinləyicilərin sayı planlaşdırıldığı kimi (550 nəfər) olmuşdur: "Yeni sistemin tətbiq edilməsini və əcnəbi tələbələrimizin olduğu əsas ölkələrdə (Türkiyə və İran) hazırda iqtisadi çətinliklərin olması fonunda qəbul planının yerinə yetirilməsi sevindirici haldır".



Universitetimizdə cəmi 28 ölkədən 1821 nəfərin (dinləyicilər və tələbələr) təhsil aldığını deyən prorektor onu da vurğuladı ki, əcnəbi tələbələrimizin statistik göstəriciləri nə qədər sevindirici olsa da, gələcəkdə bu səviyyədə qalmasına zəmanət yoxdur: "Ən çox əcnəbi tələbə qəbul etdiyimiz ölkələrdə iqtisadi böhran, əhalidə valyuta ehtiyatlarının azalması, həmçinin keçmiş Sovet İttifaqı və Şərqi Avropa ölkələrinin universitetləri tərəfindən də əcnəbi tələbələrin qəbul edilməsi bizim universitetimiz üçün ciddi rəqabət şəraiti yaradır".

N.Zeynalov bu kimi halları nəzərə alaraq rəqabətliliyin artırılması məqsədi ilə ingilis dilində tədris aparan müəllimlərin sayının və onların dil biliyi səviyyəsinin artırılması, universitet barədə məlumatlandırıcı materialların və videoçarxların hazırlanması, universitetin reklamının internetdə yerləşdirilməsi, beynəlxalq təhsil sərgilərində iştirak, əcnəbi tələbələrin ATU-nun sosial lahiyələri və tədbirlərinə cəlb olunmasının gücləndirilməsi və digər tədbirlərin həyata keçirilməsinin vacibliyini önə çəkdi.

Universitetimizin mübadilə proqramları üzrə fəaliyyətinə, yay istehsalat təcrübəsinin nəticələrinə və rezidentlərin xaricdə rotasiyasına toxunan prorektor 2018-ci ilin mart ayından indiyədək 255 əməkdaşımızın xarici ölkələrdə elmi-praktik tədbirlədə iştirak etmək məqsədilə ezamiyyətdə olduqlarını da diqqətə çatdırdı: "Son 4 ilin statistikasına nəzər salanda, hesabat dövründə səfər etmiş müəllimlərimizin sayı əvvəlki illərə görə daha çoxdur. Səfər edilmiş ölkələr arasında Rusiya (60 nəfər), Türkiyə (53 nəfər) və Almaniya (16 nəfər) üstünlük təşkil edir. Əvvəlki illərdən fərqli olaraq, Rusiyaya daha çox əməkdaşımızın səfər etməsi qeyd olunur (əvvəlki illərdə üstünlük Türkiyədə olmuşdur). Xaricə səfər etmiş əməkdaşlarımızın kafedralar üzrə statistikasına nəzər salanda onkologiya (29 səfər), ağız və üz-çənə cərrahiyyəsi (20 səfər), II uşaq xəstəlikləri (19 səfər) kafedralarının əməkdaşlarının daha fəal olmasını görə bilərik".




Universitetimizdə ingilis dilində tədris aparan müəllimlərin siyahısını dəqiqləşdirmək, ingilis dilində tədrisin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə müəllimlərimizin dil biliyinin diaqnostik qiymətləndirilməsinin həyata keçirildiyi də hesabatda öz əksini tapdı və qiymətləndirmənin nəticələri açıqlandı: "Obyektivlik üçün bu qiymətləndirməni ATU tərəfindən seçilmiş və ATU ilə əlaqəsi olmayan dil tədrisi şirkəti aparmışdır. Universitetimizdə ingilis dilində tədris aparan müəllimlərin siyahısı müvafiq fakültələrin dekanları tərəfindən təqdim olunmuşdur. Qiymətləndirmə 2 mərhələdə həyata keçirilmişdir: yazılı imtahan (mart 2018) və şifahi imtahan (iyun-iyul 2018). Dekanlıqlar tərəfindən verilmiş məlumata görə, universitetimizdə 239 müəllim ingilis dilində tədris aparırdı. Bu müəllimlərdən 5 nəfər dekanların adına yazılı ərizə ilə müraciət edərək ingilis dilində tədris aparmaqdan imtina etmişdir. 29 müəllim isə müxtəlif səbəblərdən hər 2 imtahana gəlməmişdir. 12 müəllim qiymətləndirmənin birinci mərhələsində iştirak etmiş, lakin ikinci mərhələyə gəlməmişdir. Birinci imtahanda iştirak etməmiş müəllimlər üçün ikinci imtahanda yazılı imtahanı vermək imkanı yaradılsa da, 3 müəllimimiz bundan imtina etmişdir, yəni şifahi imtahanı versə də, yazılı imtahanı verməmişdir. Nəzərinizə çatdırım ki, yalnız qiymətləndirmənin hər iki mərhələsində iştirak etmiş müəllimlər qiymətləndirmədən keçmiş hesab edilmişdir. 1 müəllim hər iki imtahana gəlmiş, lakin heç bir dil səviyyəsi göstərə bilməmişdir, beləliklə, imtahandan kəsilmişdir. Nəticədə imtahandan keçmiş müəllimlərin sayı cəmi 189 olmuşdur.

189 müəllimdən 45 nəfər (24%) yüksək dil biliyi səviyyəsini, 38 nəfər (20%) orta dil biliyi səviyyəsini, 87 nəfər (46%) ortadan aşağı dil biliyi səviyyəsini və 19 nəfər (10%) aşağı dil biliyi səviyyəsini nümayiş etdirmişdir".



İngilis dilində tədrisin keyfiyyətinin artırılması üçün bəzi tədbirlərin görülməsininin zəruriliyini vurğulayan N.Zeynalov universitetin beynəlxalq lahiyələrdə iştirakı, xarici universitetlərlə əməkdaşlığı, səfirliklər və missiyalarla əlaqələri barədə fikirlərini də şura üzvləri ilə bölüşdü.

Məruzə ətrafında çıxış edən biofiziki və bioüzvi kimya kafedrasının müdiri, akademik Dilqəm Tağıyev, histologiya, embriologiya və sitologiya kafedrasının müdiri, professor Eldar Qasımov, ictimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev və xarici tələbələrlə iş üzrə dekan Orxan İsayev hesabatı yüksək qiymətləndirərək universitetin xarici əlaqələri ilə bağlı fikirlərini söylədilər.



Müzakirələrə yekun vuran rektor beynəlxalq əlaqələrin bütün universitetlərin fəaliyyətlərinin əsas prioritet istiqamətlərindən biri olduğunu xatırlatdı. Bu gün beynəlxalq əlaqələri olmayan universiteti təsəvvür etməyin mümkünsüzlüyünü deyən G.Gəraybəyli bildirdi ki, rəhbərlik etdiyi ali məktəbin ən vacib hədəfi beynəlxalq akkreditasiyadan keçməkdir: "Əgər universitetimizin beynəlxalq akkreditasiyası olsa, bu onun tam şəkildə reytinqinin yüksəlməsinə gətirib çıxaracaqdır. Həm universitetimizdə oxumaq istəyən tələbələrin, həm onların valideynlərinin, həm də bütün xarici ölkələrin diqqət və marağı, bura yönələcək. Ölkə başçısının Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" bu istiqamətdə işlərimizi irəli aparmaq üçün bizə xüsusi stimul verir. Beynəlxalq ikili diplom proqramlarını həyata keçirmək, gənc kadrlarımızı daha çox ehtiyac duyulan ixtisaslar üzrə xaricdə doktorantura təhsili almağa göndərmək və onların qayıdaraq öz universitetimizdə fəaliyyət göstərməsinə şərait yaratmaq qarşımızda duran əsas vəzifələrdəndir".

İkili diplom proqramı üzrə universitetimizdə struktur dəyişikliklərinin nəzərdə tutulduğunu söyləyən rektor bildirdi ki, tədris proqramı yenilənməli və müasir tələbata uyğunlaşdırılmalıdır.

G.Gəraybəyli tibb təhsilində əsas yer tutan modul sisteminin dərindən öyrənilməsinin vacibliyini də vurğuladı və yeri gəlmişkən, universitetimizdə qonaq olan amerikalı professorun onunla görüşü zamanı dediyi bir fikri yada saldı: "Hər hansı bir müəllim öz tələbələrinə vaxtilə ona müəlliminin keçdiyi dərsi keçirsə, bu artıq universitet deyil, tarix muzeyidir".

Universitetimizin maliyyə durumunun, maddi-texniki bazasının yaxşılaşdırılmasında xarici tələbələrin roluna da diqqət yönəldən rektor bildirdi ki, hər bir universitetin daha çox xarici tələbə cəlb etməyə çalışması təbiidir: "Kifayət qədər xarici tələbələrimiz var. Doğrudan da, universitetimiz bu göstəriciyə görə digər ali məktəblərlə müqayisədə böyük fərqlə birinci yeri tutur. Amma ən əsası tədrisin keyfiyyətidir. İndi diplom üçün gələnlərin sayı sürətlə azalır. Həm təhsil haqqı, həm də verilən təhsilin keyfiyyəti seçimə güclü təsir edən amillərdir. Əgər bu iki parametr üzrə hansı universitet tələbəni və yaxud onun ailəsini qane edərsə, tələbə məhz o universiteti seçir. Universitetimizdə oxumaq istəyən xarici tələbələrin sayı imkan verir ki, seçim aparaq. Biz isə universitetimizi seçən tələbələrin etimadını doğrultmaq üçün təhsilin səviyyəsini artırmalıyıq".

Yekun nitqində bir neçə müəllimin ərizə yazaraq ingilis dilində tədris aparmaqdan imtina etməsinə də münasibət bildirən universitetin rəhbəri gələcəkdə belə müraciətlərin qəbul olunmayacağını vurğuladı və bunu artıq I kursda 600-ə yaxın xarici tələbənin təhsil alması ilə əsaslandırdı. Eyni zamanda kliniki kafedralarda çalışan bəzi əməkdaşların müalicə işi ilə məşğul olmaq istəməməsini də ciddi tənqid etdi.

Sonra şura üzvləri "Azərbaycan Tibb Universitetinin Qonaq Professoru (Visiting Professor)" adını almaq üçün türk əsilli Almaniya vətəndaşı Dr. Nevzat Doğanın namizədliyini, Azərbaycan Tibb Universitetinin daxili intizam, eləcə də universitet klinikalarında yerləşən kafedraların professor-müəllim heyətinin tədris və müalicə işlərinin təşkili və aparılma qaydalarını, elmlər doktoru işlərinin mövzusunu və elmi məsləhətçisini təsdiqlədi. Daha sonra əməkdaşlara yaradıcılıq məzuniyyətlərinin verilməsinə, doktoranturanın əyani təhsil formasından qiyabi təhsil formasına keçmək istəyənlərə və doktoranturanın qiyabi təhsil formasının ödənişli əsaslarla (1500AZN) həyata keçirilməsinə razılıq verən Böyük Elmi Şura dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşri və müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

# Görkəmli alimin 90 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

**Yanvarın 29-da ATU- nun Tədris Terapevtik Klinikasında Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, professor Dəmir Vahid oğlu Hacıyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**



Konfransı giriş nitqi ilə açan universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov görkəmli alimin keçdiyi zəngin həyat yoluna nəzər salıb, onun Azərbaycan tibb elminə verdiyi əvəzsiz töhfələrdən danışıb. O, Dəmir Hacıyevin öz yüksək intellektual səviyyəsi, iti təfəkkürü və bənzərsiz xarakteri ilə onu tanıyanlar arasında xüsusi hörmət qazandığını qeyd edib; "Dəmir Hacıyev 1929-cu ildə Qax rayonunun İlisu kəndində anadan olmuşdur. O, əmək fəaliyyətinə 1952-ci ildə Krım vilayətinin Morfovka rayon xəstəxanasında həkim kimi başlamışdır. 1954-cü ildə AMEA-nın H.Zərdabi adına Təbiət Tarixi Muzeyinə dəvət edilmiş və burada kiçik elmi işçi, elmi katib və böyük elmi işçi vəzifələrində işləmişdir. 1964-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun ümumi biologiya kafedrasının müdiri vəzifəsinə seçilən D.Hacıyev həmin ildən institutun elmi işlər üzrə prorektoru vəzifəsində də çalışmışdır. Ömrünün yarısını kafedranın yenidən qurulmasına həsr edən D.Hacıyev 1972-ci ildən Azərbaycan SSR EA-nın müxbir üzvü olmuşdur".

Sonra tibbi biologiya və genetika kafedrasının müdiri, dosent Vaqif Kərimov mərhum alimin həyat və fəaliyyəti haqqında ətraflı məlumat verib. O, bildirib ki, D.Hacıyevin kafedraya rəhbərlik etdiyi dövrdə kafedranın elmi-tədqiqat proqramında mühüm dəyişikliklər baş verib. Belə ki, kafedra əməkdaşları onun rəhbərliyi ilə respublika faunasının paleontoloji baxımından tədqiqi ilə məşğul olmuş, tədris və elmi-tədqiqat işinin keyfiyyətinə əhəmiyyətli təsir göstərən zəngin zooloji muzey yaratmışlar. Onun elmi tədqiqatlarından söhbət açan V.Kərimov dedi: "Alim uzun müddət Avrasiyanın miosen faunasını (hipparion) tədqiq edib. Qədim məməlilərin yeni cins və növlərini təsvir etmiş, Azıx mağarasında çoxtəbəqəli qədim insan düşərgəsini öyrənib. 60-cı illərdə Azərbaycan paleot məktəbinin banisi, professor Məmmədəli Hüseynov tərəfindən Dağlıq Qarabağın cənubunda aşkar edilmiş qədim insan məskəninin öyrənilməsində və dünya miqyasında tanıdılmasında D.Hacıyevin



böyük rolu olub. O, Azıx mağarasının 5-ci təbəqəsində aşkar edilən daş alətlərin Orta Aşel mədəniyyətinə mənsub olduğunu təsdiqləyib. Alim həmin təbəqədə tapılan ibtidai insanın alt çənəsinin 20-22 yaşlı qadına məxsus olduğunu müəyyənləşdirib. Tapıntı hazırda Azərbaycan Dövlət Tarix Muzeyinin qızıl fondunda saxlanılır".

Sözünə davam edən məruzəçi qeyd edib ki, professor D.Hacıyev 120-dən çox elmi işin, o cümlədən 12 monoqrafiya və dərsliklərin müəllifidir. Onun rəhbərliyi ilə 3 elmlər doktoru və 12 fəlsəfə doktoru yetişdirilib.

D.Hacıyev həmçinin bir sıra xarici akademiyaların və elmi cəmiyyətlərin üzvü olmuşdur. 1970-ci ildə "Fədakar əməyə görə" medalı, 1971-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni, 1972-ci ildə əməkdar elm xadimi fəxri adını almış, 1983-cü ildə akademik N.Vavilov adına qızıl medal, 1996-cı ildə isə ekologiya üzrə akademik H.Əliyev adına diplom və mükafatla təltif edilmişdir.



AMEA-nın müxbir üzvü Dəmir Hacıyev 1999-cu ildə Bakıda vəfat etmişdir.

Tədbirdə çıxış edən histologiya, embriologiya və sitologiya kafedrasının müdiri, professor Eldar Qasımov, ağız və üz-çənə cərrahiyyəsi kafedrasının professoru Tamara Hüseynova, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun daş dövrü arxeologiyası şöbəsinin müdiri, professor Əsədulla Cəfərov və tanınmış bəstəkar Ruhəngiz Qasımova görkəmli alim haqqında öz ürək sözlərini söyləyib, yadda qalan xatirələrini bölüşüblər. Natiqlər onun insani keyfiyyətlərini dilə gətirib və tibb elminin inkişafındakı faydalı əməyindən danışıblar.

Sonra professor Dəmir Hacıyevin həyat və fəaliyyəti haqqında sənədli film nümayiş etdirilib.

Sonda alimin qızları - Nərgiz və Leyla Hacıyeva bacıları ailə üzvləri adından çıxış edərək konfransın yüksək səviyyədə təşkilinə görə universitet rəhbərliyinə və həmçinin tədbirdə iştirak edən hər kəsə öz minnətdarlıqlarını bildiriblər.

Konfrans işini plenar iclaslarla davam etdirib.

**M.ƏLƏKBƏRLİ**

## Səhiyyə Nazirliyi yanında fəaliyyət göstərəcək İctimai Şuranın tərkibi formalaşıb

**"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə uyğun olaraq, yanvarın 28-də Səhiyyə Nazirliyi yanında İctimai Şura üzvlüyünə keçirilən seçkilərin nəticəsi açıqlanıb.**




Bu barədə AZƏRTAC-a nazirliyin mətbuat xidmətindən bildirilib.

Aşağıda adları qeyd olunan şəxslər İctimai Şuraya üzv seçiliblər:

1. Qorxmaz Ağayev -"Tibb işçilərinin hüquqi maarifləndirilməsinə yardım" İctimai Birliyi;
2. Tariyel Eyvazov - "Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyi;
3. Ziba Nəbiyeva - "İnkişafa doğru Qadın Təşəbbüsü" İctimai Birliyi;
4. Rüstəm Salayev - "Psixo-Sosial yardım" İctimai Birliyi;
5. Yeganə Sultanova - "Azərbaycan Diabet Liqası" İctimai Birliyi.

Səhiyyə Nazirliyi yanında İctimai Şura 20 gün müddətində ilk iclasını keçirməklə fəaliyyətə başlayacaq.

## DST: Qeysəriyyə kəsiyi əməliyyatı çox vaxt tibbi ehtiyac olmadan aparılır

**Yanvarın 25-də Dünya Səhiyyə Təşkilatı (DST) və Respublika Perinatal Mərkəzinin birgə təşkilatçılığı ilə qeysəriyyə kəsiyi əməliyyatının azaldılması üçün səmərəli sistem olan "Robson təsnifatı"nın təqdimatına həsr olunmuş seminar-konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə respublikanın müxtəlif şəhər və rayonlarından olan mama-ginekoloqlar, o cümlədən beynəlxalq mütəxəssislər iştirak ediblər.

DST-nin Azərbaycan üzrə nümayəndəsi Hande Harmancı tədbirin məqsədinin son illər artan qeysəriyyə əməliyyatının müqayisəsi və monitorinqi vasitəsi olan "Robson təsnifatı"nın təqdimatı və bu sistemin səhiyyə müəssisələrində tətbiq üsulları barədə hər kəsi məlumatlandırmaq olduğunu deyib.

H.Harmancı bildirib: "Hesab edirik ki, bu təsnifatın istifadəsi səhiyyə müəssisələrində qeysəriyyə əmsalına təsir göstərən qadın qruplarını müəyyənləşdirməyə və bu qrupların nəticələrini təhlil etməklə səhiyyənin keyfiyyətini qiymətləndirməyə yardım edəcək. Bu sistem, həmçinin toplanmış məlumatların əhəmiyyəti, şərhi və istifadəsi ilə bağlı tibbi heyətin maarifləndirmə səviyyəsini artırmağa öz töhfəsini verəcək.

Qeysəriyyə kəsiyi əməliyyatı dünyada, xüsusilə yüksək və orta gəlirli ölkələrdə artan templə davam edən və ən geniş yayılmış əməliyyat növlərindən biridir. İnsan həyatını xilas etməsinə baxmayaraq, bu əməliyyat çox vaxt tibbi ehtiyac olmadan aparılır. Bu da qadınlar və körpələr üçün qısa və uzunmüddətli sağlamlıq problemlərini yaradır. Ona görə də hər xəstənin qarşılaşdığı vəziyyətə uyğun ehtiyaclarını ödəməyin əhəmiyyətini vurğulayır və yalnız tibbi zərurət yarandıqda bu əməliyyatı tövsiyə edirik".

Respublika Perinatal Mərkəzinin direktoru, respublikanın baş mama-ginekoloqu Sevinc Məmmədova qeysəriyyə kəsiyi əməliyyatının tarixindən bəhs edərək deyib: "Hazırda dünyada qeysəriyyə kəsiyi əməliyyatlarının sayı artır. Belə ki, İsveçrədə hər üç uşaqdan biri bu əməliyyatla doğulur. Almandilli ölkələrdə qeysəriyyə kəsiyi əməliyyatlarında 52 faizədək artım qeydə alınıb. DST-nin 2015-ci ildə hazırladığı hesabata əsasən, qeysəriyyə kəsiyi əməliyyatının tezliyinə görə Latın Amerikası ölkələri 44 faiz nəticə ilə birincidir. Şimali Amerika ölkələri 32 faizlə ikinci, Şərqi Asiya və Sakit okean ölkələri isə təxminən 29 faiz nəticə ilə üçüncü yerdə qərarlaşıb. Avropa regionunda doğuş azalıb, qeysəriyyə əməliyyatının tezliyi isə artıb. Azərbaycanda bu əməliyyatın tezliyi 26-28 faiz arasında tərəddüd edir. Ölkəmizdə doğuşların sayı da demək olar ki,



ilbəil azalır. DST bu əməliyyatın tezliyini 15-27 faiz arasında müəyyənləşdirib".

Türkiyəli professor Ayşən Bulut, Azərbaycan Tibb Universitetinin professoru İslam Mahalov və başqaları tədbirin əhəmiyyətindən danışıb və təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Sonra ATU-nun professoru Elmira Əliyevanın "Qeysəriyyə kəsimi əməliyyatının tezliyinin azaldılması yolları" və Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun böyük elmi işçisi Aynurə İsmayılovanın "Robson təsnifatının əsas göstəriciləri" mövzularında məruzələri dinlənilib.

**ATU-nun mətbuat xidməti**

# Türkiyənin "Memorial Sağlık Grubu» nümayəndələri ilə görüş olub

◆ Yanvarın 18-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının rəhbərliyi ilə Türkiyənin "Memorial Sağlık Grubu"nun təmsilçiləri və nümayəndələri arasında görüş keçirilib.





Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov qonaqlara universitetin nəzdindəki klinikaların, xüsusilə Tədris Cərrahiyyə Klinikasının fəaliyyət istiqaməti haqqında məlumat verib. Prorektor N.Zeynalov klinikada tədris və təlimlə bağlı xeyli işlər görüldüyünü qeyd edərək, bu istiqamətdə "Memorial Sağlık Grubu" ilə əməkdaşlığın qurulmasının vacibliyini vurğulayıb: "Bu gün pediatrik kardiologiya mövzusunda ətraflı müzakirələr və fikir mübadiləsi aparılacaq. Azərbaycan Tibb Universitetində bu sahədə böyük işlər görülür. Peşəkarlardan ibarət geniş tərkibli komandamız mövcuddur. İnanıram ki, qarşılıqlı əməkdaşlığımız sayəsində gələcəkdə bu sahədə işləri daha da genişləndirə biləcəyik".

Sonra Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev klinikada tez-tez xarici ölkələrin, o cümlədən Türkiyədən olan mütəxəssislərin iştirakı ilə təlim xarakterli tədbirlər keçirildiyini bildirib: "Tədris Cərrahiyyə Klinikasında tələbələrə həm dərs keçirilir, həm də onlar üçün treninqlər təşkil olunur. Artıq 5 ildir fəaliyyət göstərən klinikada cərrahiyyə üzrə əsas biliklər verilir. Klinikamızda 50 professor, 130 dosent çalışır".

Sözünə davam edən S.Hadıyev "Memorial Sağlık Grubu"nun mütəxəssislərinin iştirakı ilə keçiriləcək seminarda pediatriyaya aid mövzunun seçilməsinin çox önəmli olduğunu və bu məsələyə Azərbaycanda dövlət səviyyəsində diqqət ayrıldığını bildirib.

Nümayəndə heyətinin rəhbəri, Memorial Bahçelievler Xəstəxanası Doğum və Ginekologiya Mərkəzinin professoru Cihat Şen də öz növbəsində təmsil etdiyi tibb müəssisəsi haqqında məlumat verib. Professor C.Şen ATU ilə əməkdaşlığın təməlinin qoyulmasına şad olduğunu söyləyib. O, klinikada təşkil olunacaq 2 günlük kursların ATU tələbələri üçün faydalı olacağından əminliyini ifadə edib.

ATU-nun I pediatriya, terapevtik və pediatrik propedevtika kafedrasının müdiri, professor İbrahim İsayev qarşılıqlı əməkdaşlığın davamlı olması arzusu ilə seminara uğurlar diləyib.

Görüşdə ATU-nun Tədris Cərrahiyyə Klinikasının beynəlxalq əlaqələr şöbəsinin müdiri Aygün Şükürova, Memorial Xəstəxanasının pediatrik kardioloqu profesor İrfan Levent Saltık və genetika şöbəsinin müdiri Yeşim Özdemir iştirak ediblər.

# Tələbə Gənclər Təşkilatı Qanlı 20 Yanvar faciəsi ilə bağlı videoçarx hazırlayıb




**◆ Azərbaycan Tibb Universiteti Tələbə Gənclər Təşkilatı (TGT) mütəmadi olaraq tarixi günlərlə bağlı xüsusi əhəmiyyətli videoçarxlar hazırlayır. Bu silsilədən olan növbəti videoçarx Azərbaycanın qan yaddaşı və eyni zamanda qəhrəmanlıq səhifəsi sayılan 20 Yanvar faciəsi ilə bağlıdır. Tələbə Gənclər Təşkilatının hazırladığı bu videoçarxda 1990-cı ildə Azərbaycan Tibb Universitetində təhsil alan və qanlı gecədə qəhrəmancasına şəhid olan tələbələrin simasında həmin gün baş verən hadisələr işıqlandırılıb.**

Tələbə Gənclər Təşkilatının sədri Rauf Vəliyevin sözlərinə görə, videoçarxda ATU-nun rektorunun müşaviri, professor, 20 Yanvar hadisələrinin canlı iştirakçısı Mübariz Allahverdiyev, Mərkəzi Klinik Xəstəxananın həkim-rezidenti Tural Əzizov, ATU-nun TGT-nin sədri Rauf Vəliyev, tələbələr Həmid Həsənov, Azad Kərimbəyli, İsmayıl Nəzərli, Raul Rəsulzadə və Simarə Qurbanova rol alıblar. O, qeyd edib ki, videoçarxın hazırlanmasında məqsəd günümüzdə cəmiyyətin ən aktiv və aparıcı təbəqələrindən olan gənclərimizə tariximizi aşılamaq, xalqımızın o gecə yaşadığı dəhşətləri çatdırmaqdır: "Videoçarxın ərsəyə gəlməsində göstərdikləri dəstək üçün ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə, 1 saylı Kliniki Tibbi Mərkəzin rəhbərliyinə və videoçəkilişin montajı üçün "PhotoJalal"a (Cəlal Məmmədov) dərin təşəkkürlərimizi bildiririk. Təşkilatımız bundan sonra da günümüzün aktual məsələlərini diqqətdə saxlamaqla yeni layihələr üzərində işləməyi planlaşdırır".

# "Torakoskopik timektomiya. Miasteniya xəstəliyi" mövzusunda seminar

**Yanvarın 25-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında "Torakoskopik timektomiya. Miasteniya xəstəliyi" mövzusunda seminar keçirilib.**



Seminarda açılış nitqi ilə çıxış edən ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev klinikada mütəmadi olaraq elmi konfrans və simpoziumların keçirildiyini söyləyib: "Belə tədbirlərin keçirilməsi bir neçə səbəbə görə əhəmiyyətlidir. İlk növbədə inkişaf edən dünyamızda bütün sahələrdə olduğu kimi, tibb sahəsində də bir çox yeniliklər baş verir. Bunlarla tanış olmaq, biliklərimizi paylaşmaq, təcrübə mübadiləri aparmaq çox böyük əhəmiyyət kəsb edir. Bugünki seminarın da mövzusu çox önəmli məsləyə - timus vəzi xəstəliklərinə həsr olunub. Cərrahiyyənin bir çox sahələrində olduğu kimi, bu sahədə də mini invaziv cərrahiyyə üsullarından geniş istifadə olunmağa başlanılıb".

S.Hadıyev çıxışında qeyd edib ki, bu əməliyyatın ilk dəfə olaraq ATU-nun Tədris Cərrahiyyə Klinikasının torokal cərrahı Arif Ağayev tərəfindən icra olunması çox sevindirici haldır.

Məlumat üçün bildirək ki, Azərbaycan Tibb Universitetində son 3 ildə "Miasteniya Gravis" xəstəliyindən əziyyət çəkən 14 xəstə tam müalicə olunub. Azərbaycanda ilk dəfə olaraq məhz ATU-nun Tədris Cərrahiyyə Klinikasında torokal cərrah Arif Ağayev tərəfindən bu xəstələr əməliyyat yolu ilə sağlamlıqlarına qovuşub, illərlə dərman müalicəsi almaqdan qurtulublar.

Daha sonra seminarda Tədris Cərrahiyyə Klinikasının torokal cərrahı, tibb elmləri namizədi Arif Ağayevin "Torakoskopik timektomiya", nevroloq Yaqut Lətifovanın "Miasteniya xəstəliyi, diaqnostikası və müalicəsi" mövzularında mühazirələri dinlənilib. Sonda seminar iştirakçıları mövzu ətrafında müzakirlər apарıblar.

# Azərbaycanda təhsil alan iranlı tələbələr bəyanat verib

**Azərbaycanda təhsil alan iranlı tələbələrin Elmi-Mədəni və İdman Birliyi 20 Yanvar hadisələrinin ildönümü ilə əlaqədar bəyanat yayıb. Bəyanatda qeyd olunur ki, bu hadisələrdən 29 il ötməsinə baxmayaraq, Sovet ordusunun Bakıda dinc əhaliyə qarşı törətdiyi dəhşətli qırğın heç bir zaman unudulmayacaq.**



"Həmin gecə Ermənistanın işğalçı iddialarına qarşı çıxan qardaş Azərbaycan xalqı Bakının küçə və meydanlarına çıxaraq öz haqqını tələb edirdi. Azərbaycan xalqının qəhrəman oğul və qızları bir nəfər kimi öz etiraz səsini qaldıraraq dinc vasitələrlə hüquqlarının qorunmasını istəyirdilər. Ancaq Sovet rəhbərliyinin birbaşa göstərişi ilə xalqın bu dinc mübarizəsinə qarşı yeridilən qoşun Bakıda misli görünməmiş qanlı faciəyə səbəb oldu. Sovet qoşunlarının törətdiyi qırğın nəticəsində Bakıda 134 dinc vətəndaş öldürüldü, 600-dən çox insan yaralandı, 800-dən çox adam isə haqsız yerə həbs edildi".

Azərbaycanda təhsil alan iranlı tələbələrin Elmi-Mədəni və İdman Birliyinin sədri Zoheir Mirzəjani bəyanatda müqəddəs Quran kitabında yer alan fikirlərə istinad edir. Quranda buyurulur ki, "Şəhidlərə ölü deməyin, onlar diridirlər və Allahın nemətləri ilə faydalanırlar, ancaq siz bunu bilmirsiniz." Mirzəjani qeyd edir ki, şəhidlik ölümlərin ən şərəflisidir. Və bu baxımdan İran Prezidenti möhtərəm Həsən Ruhaninin "Fədakarlıq dərsini şəhidlər və əlillər, habelə onların ailələrindən öyrənmək lazımdır" kəlamı da böyük əhəmiyyət kəsb edir.

Bəyanatda qeyd edilir ki, artıq 29 ildir ki, bütün dünya, o cümlədən İran xalqı qanlı 20 Yanvar faciəsini Azərbaycan xalqının Ümumxalq hüzn günü kimi qeyd edir: «Biz bu münasibətlə müxtəlif tədbirlər, o cümlədən konfranslar, sərgilər təşkil etməklə Azərbaycana həmdərd olduğumuzu nümayiş etdiririk. Biz, iranlı tələbələrin Azərbaycandakı təmsilçiləri kimi 20 Yanvar faciəsinin qurbanlarının xatirəsini dərin ehtiramla yad edir və bəşəriyyətə qarşı törədilən hər növ bütün cinayətləri pisləyirik".

**ATU-nun mətbuat xidməti**

# "Anadangəlmə ürək qüsurları" mövzusunda seminar

**Yanvarın 18-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında "Anadangəlmə ürək qüsurları" mövzusuna həsr olunmuş seminar keçirilib.**







Seminarda ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov açılış nitqi ilə çıxış edərək bu əhəmiyyətli mövzuya aid təlimin iştirakçılara böyük fayda verəcəyindən əminliyini bildirib və seminarın işinə uğurlar diləyib.

Seminarda Memorial Bahçelievler Xəstəxanasının Doğum və Ginekologiya Mərkəzinin müdiri, professor Cihat Şen "Anadangəlmə ürək defektləri: nəyə görə fetal mərhələdə diaqnozun qoyulması bu qədər vacibdir?", ATU-nun I pediatriya, terapevtik və pediatrik propedevtika kafedrasının müdiri, professor İbrahim İsayev "Uşaqlarda ürəyin inkişaf anomaliyaları: klinik variantlar", AVSD İrfan Levent Saltık "Dörd kamera görüntüsü: çəpər defektləri – ASD, VSD (inlet, membranoz), Yeşim Özdemir "Fetal ürək anomaliyalarına görə genetik dəyərləndirmə", Tədris Cərrahiyyə Klinikasının pediatrik kardioloqu Elşən Rzayev "Pediatrik kardioloqun fetal anadangəlmə qüsurlara baxışı", Sevinc Muxtarova "Anadangəlmə ürək qüsurları olan yenidoğulmuşların vəziyyətinin klinik stabilizasiyası" kimi mövzularda çıxış ediblər. Maraqlı, faktlarla zəngin olan çıxışlardan sonra mövzu ilə bağlı müzakirə aparılıb.

# Bədənini isti armatur deşən xəstəni həkimlərimiz sağaldıblar

**Azərbaycan Tibb Universietinin urologiya kafedrasının müdiri, Azərbaycan Uroloqlar Cəmiyyətinin sədri Südeyif İmamverdiyevin rəhbərliyi ilə 28 yaşlı gənc sağlamlığına qovuşub. Mürəkkəb əməliyyat yolu ilə xəstədə tamamilə qapanmış sidik kanalı bərpa olunub.**

S.İmamverdiyev qeyd edir ki, iki ay əvvəl 28 yaşlı gənc ciddi problem yaşayıb - isti armatur oğlanın ayaqlarının arasından keçib. Həddən artıq qızan yüksək temperaturlu armatur gəncin bədənini deşib keçərək sarğısından çıxıb. Bu da həmin nahiyədə böyük bir yara əmələ gətirib.

"Bundan sonra gəncdə armatur keçən yer tamamilə yanıb, ona görə də sidik kanalı tam dağılıb. Bu səbəbdən də xəstə sidiyə gedə bilmirdi, 3 yerdə ciddi yaraları vardı. Sidiyi xaric etməsinə yardımçı olmaq üçün qarnın aşağı hissəsindən (qasıqüstü nahiyədən) sidik kisəsinə boru taxdıq".

Tanınmış uroloq həkim bildirir ki, müayinələr nəticəsində pasiyentin sidik kanalı tamamilə abiterasiya olub, yəni tamamilə çapıqlarla qapanıb. Odur ki, əməliyyat yolu ilə kanalın bərpasına qərar verilib.



S.İmamverdiyevin rəhbərliyi ilə aparılan əməliyyat zamanı kanaldakı qapanmayan hissələrin ucları bir-birinə birləşdirilib.

"Bu əməliyyatın çətinliyi onda idi ki, qapanmış nahiyəni bərpa etmək üçün toxuma çatışmazlığı ola bilərdi. Belə olacağı təqdirdə, mərhələlərlə əməliyyat aparıb digər nahiyələrdən - hətta ağız boşluğundan selikli qişanı götürüb ora köçürmək, kanal düzəltmək üçün o hissədə toxuma yaratmaq lazım idi".

Həkim qeyd edir ki, 3 saat yarım davam edən əməliyyat uğurla tamamlanıb və anatomik yol bərpa olunub.

# Mürəkkəb əməliyyat müasir üsulla icra edilib

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının (TCK) həkimləri növbəti mürəkkəb əməliyyatı endoskopik əməliyyat yolu ilə birlikdə uğurla icra ediblər.**



ATU-nun Tədris Cərrahiyyə Klinikasının neyrocərrahı Fərid Qaralov və LOR şöbəsinin müdiri Murad Şıxəliyev birgə cərrahi əməliyyat icra ediblər.

57 yaşında xəstə görmədə olan problemlərlə və qandakı hormonların artması səbəbilə Tədris Cərrahiyyə Klinikasının neyrocərrahiyyə şöbəsinə müraciət edib.

Ətraflı müayinələrdən sonra neyrocərrah Fərid Qaralov tərəfindən xəstəyə hipofiz adenoması diaqnozu qoyulub.

Kompüter tomoqrafiyası və MRT müayinəsindən sonra xəstənin əməliyyat olunması ilə bağlı qərar verilib.

Murad Şıxəliyevin sözlərinə görə, endonozal burundan daxil olmaqla, kənardan kəsik aparmadan şiş toxuması aşkar edilib: "Biz şiş toxumasına girişi yaratdıq. Əvvəllər bu əməliyyatlar açıq üsulla aparılırdı. Elə indinin özündə də bəzi neyrocərrahlar açıq üsuldan istifadə edirlər. Belə olanda, əməliyyat 3- 6 saata qədər davam edir. Açıq üsulla əməliyyatın nəticəsi daha çox travmatik olur. Bizim istifadə etdiyimiz endoskopik üsul daha müasirdir. Biz burun dəyilindən daxil olmaqla, daha az travmatik yolla əməliyyatı icra edirik".

Kənardan dəlik açmadan, burundakı təbii dəlikdən giriş yaradıldıqdan sonra neyrocərrəh Fərid Qaralov tərəfindən şiş toxuması çıxarılıb. Əməliyyat saat yarım davam edib. Bu mürəkkəb əməliyyat tamponsuz, qansız üsulla başa çatıb.

# ATU-da daha bir cütlüyün arzusu gerçəkləşdi

- **Ciddi sağlıq problemləri olan və neçə illərdir ana olmaq arzusu ilə yaşayan gənc xanım Azərbaycan Tibb Universitetinin həkimlərinin köməyilə bu arzusuna çatıb. Yalnız bir yumurtalığının qismi funksionallığı olan 29 yaşlı qadın hamilə qalmaq istəyi ilə bağlı Azərbaycan Tibb Universitetinin I mamalıq-ginekologiya kafedrasının dosenti, tibb elmləri namizədi Natəvan Axundovaya müraciət edib.**



Mama-ginekoloq və endokrinoloq N.Axundovanın bildirdiyinə görə, qadında hər iki yumurtalığın endometrioması olubmuş. Buna görə də ailə qurandan 3 ay sonra xanımda laparoskopik yolla sağ tərəfli ovariektomiya (sağ yumurtalığın çıxarılması), sol yumurtalığın rezeksiyası (hissəvi kəsilməsi) əməliyyatı icra olunub.

"Əməliyyatdan sonra qadının aybaşıları nəzərəçarpacaq dərəcədə pozulub. Bundan öncə qadın bir çox klinikalara müraciət etsə də, ona donor yumurtası ilə ekstrakorporal mayalanma məsləhət görülüb. Biz sonsuzluğun səbəbini araşdırmaq üçün bir çox laborator-instrumental müayinələr apardıq. Nəticədə məlum oldu ki, böyrəküstü vəzi mənşəli androgenlər, prolaktin, tireostimuləedici hormonun səviyyəsi yüksəkdir, D vitamininin ciddi çatışmazlığı var. Həmçinin, ultrasəs müayinəsi zamanı endometriumun polipi, sol yumurtalığın endometrioid sisti (şokolad sisti) aşkarlanıb".

Həkimin sözlərinə görə, yumurtalıqda aparılan əməliyyat onun rezerv imkanlarını azalda biləcəyindən, qanda antimüller hormonu da təyin edilib və bu göstərici 0,1 olub. Alınan nəticələrə müvafiq qadına təyinat verilib.

Sevindirici haldır ki, bu təyinatdan 4 ay sonra qadın ovulyasiya induksiya olunmadan, spontan (özbaşına) hamilə qalıb. Hamiləlik zamanı bu xanım ATU-nun həkimləri tərəfindən izlənərək, o, hipotireoz, düşük təhlükəsi, vaxtından əvvəl doğuş təhlükəsi, preeklampsiya, simptomsuz bakteriyauriyaya görə müalicə alıb.

N.Axundova bildirib ki, nəhayət uzun intizardan sonra cütlük valideyn olmaq sevincini yaşayıb. Yanvarın 18-də hamiləlik keysəriyyə kəsiyi əməliyyatı ilə sona çatıb. Çəkisi 3.320 qram, boyu 52 sm olan sağlam uşaq doğulub. Artıq ana və yenidoğulmuş evə yazılıblar.

# "Anemiyalar və onların laborator diaqnostikası" mövzusunda məruzə səsləndirilib

**Yanvarın 23-də Tədris Cərrahiyə klinikasında seminar keçirilib. Seminarda rezident Lalə Qəhrəmanlı "Anemiyalar və onların laborator diaqnostikası" mövzusunda məruzə ilə çıxış edib.**



Məruzəçi anemiyaların mahiyyəti, növləri, onların laborator diaqnostikası, eritrositar kütlənin azalması və s. barədə ətraflı məlumat verib.

L.Qəhrəmanlının məruzə ətrafında hazırladığı slayd iştirakçılarda marağa səbəb olub. Seminarın sonunda məruzə ilə bağlı verilən suallar rezident tərəfindən əhatəli şəkildə cavablandırılıb.

ATU-nun mətbuat xidməti

Təbib





# Qayğıkeş həkim, intizamlı müəllim

**Dermatovenerologiya kafedrasının dosenti, tibb elmləri namizədi, Fəxri həkim Svetlana Əliyevanın 80 yaşı tamam olur.**



Svetlana Ağa Əli qızı Əliyeva 1939-cu il fevralın 2-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.

O, 1956-cı ildə indiki ATU-nun müalicə-profilaktika fakültəsinə qəbul olmuş, 1962-ci ildə həmin fakültəni bitirmişdir. Elə həmin ildən əmək fəaliyyətinə başlayan S.Əliyeva 1962-1966-cı illərdə ADU-nun (indiki BDU) "İnsan və heyvanların fiziologiyası" kafedrasının aspiranturasında təhsil almışdır.

Onun 57 illik əmək fəaliyyətinin 53 ili ATU-nun dermatovenerologiya kafedrası ilə bağlıdır. Belə ki, o, 1966-cı ildə kafedrada baş laborant işləmiş, 1970-ci ildə isə müsabiqə yolu ilə kafedranın assistenti vəzifəsini tutmuşdur.

1978 və 1985-ci illərdə Moskva şəhərində İ.Seçenov adına I METİ-da müəllimlərin ixtisasartırma kurslarını keçmiş, «əla» qiymətlə vəsiqə almışdır.

1994-cü ildə "Оптимизация глюкокортикостероидной терапии больных пузырчаткой под контролем уровня тирозина в крови" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsini, 1995-ci ildə dosent elmi adını almış və müsabiqə yolu ilə dermatovenerologiya kafedrasının dosenti vəzifəsinə seçilmişdir.

1991-ci ildən kafedranın tədris hissə müdiridir.

ATU-nun rektoru tərəfindən "fəxri fərman"la mükafatlandırılan S.Əliyeva 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Fəxri həkim" adına layiq görülmüşdür.

Diqqətli və qayğıkeş həkim, nizam-intizamlı müəllim kimi kafedra əməkdaşları və tələbələr arasında böyük rəğbət qazanmış Svetlana xanımı 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, hörmətli həmkarımıza bundan sonra da sağlam ömür arzulayırıq!

**Dermatovenerologiya kafedrasının əməkdaşları**

# Peşəkar mütəxəssis, dəyərli alim

**Bu günlərdə həyatının böyük bir hissəsini peşəkar tibb kadrlarının hazırlanmasına həsr etmiş tanınmış alim, histologiya, embriologiya və sitologiya kafedrasının müdiri, professor Eldar Qasımovun 70 yaşı tamam oldu.**



Qasımov Eldar Köçəri oğlu 1949-cu il yanvarın 25-də Kəlbəcər rayonunun Bəzirxana kəndində anadan olub.

Kəndlərində məktəb olmadığına görə Zar kənd 8 illik məktəbində birinci sinifə getmiş, yaxşı oxuduğu üçün kənddə dərs deyən müəllimlərin təkidi ilə V sinifdən Kəlbəcər orta məktəbində oxumağa başlamışdır. O, həmişə qeyd edir ki, Kəlbəcər orta məktəbində, elmi dərəcə almış keçmiş şagirdlərin çox hörmətlə qarşılanması və onlarla dərnək olar ki, bütün rayon camaatının fəxr etməsi şagirdlər arasında oxumağa, elmə olan həvəsi artırırdı. E.Qasımov 1966-cı ildə orta məktəbi qurtaran ili N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilktika fakültəsinə daxil olmuş, 1972-ci ildə isə həmin fakültəni bitirmişdir. O, hələ VI kurs tələbəsi olarkən insan anatomiyası kafedrasına preparator vəzifəsinə qəbul olunmuşdur. İnstitutu bitirdikdən sonra Səhiyyə Nazirliyinin göndərişi ilə baş laborant keçirilmiş, 1973-cü ildə müsabiqə yolu ilə kafedranın assistenti vəzifəsinə seçilmişdir.

E.Qasımov 1981-ci ildə Yaroslavl Tibb İnstitutunda namizədlik dissertasiyasını müdafiə etdikdən sonra, 1981-ci ildə baş müəllim, 1986-cı ildə isə kafedranın dosenti vəzifəsinə seçilmişdir.

O, 1986-cı ilin dekabr ayından N.İ. Piraqov adına 2-ci Moskva Tibb İnstitutunun "Elektron mikroskopiya və Mikrosirkulyasiya" elmi-tədqiqat laboratoriyasının doktorantı olmuş və 1991-ci ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. 1992-ci ildə müsabiqə yolu ilə insan anatomiyası kafedrasının professoru seçilmişdir.

E.Qasımov 1982-ci ildən 1986-cı ilə qədər II müalicə-profilaktika fakültəsinin dekan müavini vəzifəsində işləmiş, 1995-ci ildən isə I müalicə-profilaktika fakültəsinin dekanı olmuşdur.

O, 1999-cu ildə müsabiqə yolu ilə histologiya, embriologiya və sitologiya kafedrasının müdiri seçilmiş və hazırda da həmin vəzifədə çalışır. Keçən müddət ərzində onun rəhbərliyi ilə kafedrada tədris-metodik işlərin yerinə yetirilməsi, dərslərin müasir texniki vasitələrlə təmin olunması, dərs otaqlarının, laboratoriyanın və mühazirə zallarının təmiri sahəsində əsaslı işlər görülmüşdür.

E.Qasımov tələbələrin xahişi ilə onları maraqlandıran mövzular üzrə molekulyar biologiyada əldə olunmuş son yenilikləri özündə əks etdirən əlavə mühazirələr oxuyur.

Onun rəhbərliyi ilə "Respublikada biologiya və tibb sahəsində ultrastruktur tədqiqatların müasir səviyyədə təşkili üçün Transmission Elektron Mikroskopun (TEM), müvafiq cihaz, avadanlıq və materialların alınması" mövzusunda hazırlanan Pilot layihəsi AR Prezidenti yanında Elmin İnkişaf Fondunun xətti ilə keçirilən müsabiqədə qalib gəlmiş və TEM 2012-ci ildə universitetin 4-cü tədris binasında yerləşdirilmişdir. Onun rəhbərliyi ilə universitetin 17 kafedrası, AMEA-nın 5 institutu, BDU-nun üç laboratoriyası, Aviasiya Akademiyası, Almaniyanın Münxen şəhər Universiteti, Gürcüstanın Kimyəvi Biologiya İnstitutu ilə prokariot orqanizmlərin, nanohissəciklərin quruluş xüsusiyyətlərini, sonuncuların təsir mexanizmlərinin, müxtəlif patoloji və eksperimental şəraitlərdə hüceyrə, toxuma və orqanlarda baş verən dəyişikliklərin ultrastruktur səviyyədə öyrənilməsi istiqamətində elmi-tədqiqat işləri yerinə yetirilir. Hazırda AMEA Rəyasət Heyətinin 2018-2021-ci illər üçün "Bədxassəli şişlər zamanı xərçəng kök hüceyrələrinin İNF-a vasitəsilə aktivləşdirilməsinin müalicəvi və proqnostik əhəmiyyəti" adlı elmi-tədqiqat proqramının icraçısıdır.

Professor E.Qasımov keçmiş SSRİ-nin bir çox şəhərlərində, Slovakiyada (1989), ABŞ-da (2001), Avstriyada (2009, 2013), Polşada (2009), Fransada (2011), Hollandiyada (2012), Çin Xalq Respublikasında (2011, 2014), İsveçdə (2012), İtaliyada (2014), Rusiya Federasiyasında (2014), Bakı Elm Festivallarında (2014, 2016), AMEA-nın Biologiya və Tibb elmlər bölməsinin illik hesabatında (2013), ATU-da təşkil olunmuş beynəlxalq və yerli konfranslarda (2014-2018) məruzələrlə çıxış etmişdir. Əldə olunan elmi-tədqiqat işlərinin nəticələri həmmüəlliflər tərəfindən Avstraliya (2015) və Hon-Konqda (2017) məruzə edilmişdir.

O, elmi-pedaqoji fəaliyyəti dövründə 240-dan artıq elmi əsər, o cümlədən hüceyrə biologiyasına həsr olunmuş müasir məlumatları özündə əks etdirən fundamental "Sitologiya" dərsliyi, kafedrada tədris olunan fənnlərə aid materialları əhatə edən üç dildə "Histologiya atlası", 9 dərs vəsaiti, 7 tədris-metodik işləmə və 2 səmərələşdirici təklif dərc etdirmişdir. Onun rəhbərliyi altında 2012-ci ilin oktyabr ayının 11-də impakt faktoru yüksək olan jurnallarda dərc etdirilən məqalələri nəzərə alaraq, o, tibb və nevrologiya sahəsində əldə ediyi nailiyyətlərə görə Tomson Reuters agentliyinin mükafatına layiq görülmüşdür.

Professor E.Qasımov universitet və I müalicə-profilaktika fakültəsinin Elmi Şuralarının, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının tibbi-nəzəri elmlər bölməsinin, AMEA-nın Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Biologiya və Tibb Elmləri Bölməsinin, ATU-nun nəzdindəki Dissertasiya Şurasının üzvü və həmin Dissertasiya Şurası nəzdində müzakirə şurasının sədridir. Universitet üzrə yaradılmış "İntizam Komissiyasının" üzvüdür. O, Azərbaycanın "Anatom, Histoloq və Embrioloq Elmi Cəmiyyəti"nin, Milli Nevroloqlar, Beynəlxalq Morfoloqlar, ABŞ-ın Periferik Sinir, Beynəlxalq Alzheymer (ISTAART) və Elmin İnkişafı (AAAS) assosiasiyalarının üzvüdür.

Onun rəhbərliyi ilə 7 nəfər tibb, 1 nəfər isə biologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işlərini yerinə yetirməklə müdafiə etmişlər.

Professor E.Qasımov 2000-ci ildə ölkə başçısının Sərəncamı ilə Əməkdar müəllim fəxri adına, 2010-cu ildə isə "Tərəqqi" medalına layiq görülmüşdür. O, müxtəlif illərdə Səhiyyə Nazirliyinin və ATU-nun fəxri fərmanları ilə də təltif olunmuşdur.

Eldar müəllimə möhkəm can sağlığı, xoşbəxtlik, uzun ömür və elmi fəaliyyətində uğurlar arzulayırıq!

**Histologiya, embriologiya və sitologiya kafedrasının kollektivi**

# Morfindən daha güclü ağrıkəsici dərman hazırlanıb

**Amerikalı alimlər unikal təsirə malik ağrıkəsici dərman hazırlayıblar.**



AZƏRTAC "Medikforum"a istinadla xəbər verir ki, işlənib hazırlanan preparat keyitmə keyfiyyətinə görə tibb praktikasında daha çox istifadə edilən morfini üstələyir.

İndiyədək daha çox təsirli, ən geniş yayılan keyitmə üsulu morfindir. Bu, allergiya reaksiyalı insanları keyfiyyətli tibbi xidmətlə təmin etməkdən ötrü morfindən istifadəni əhəmiyyətli dərəcədə genişləndirməyə şərait yaradır. Bu halda yeni preparatın təsirli maddələri daha təhlükəsizdir, opioidlərə nisbətən daha çox səmərəlidir və asılılıq əmələ gətirmir.

"AT-121" adlandırılan yeni ağrıkəsici heyvanların, o cümlədən insana daha yaxın olan meymunların üzərində sınaqdan keçirilib. Təcrübələrin nəticəsi onun ağrı hisslərini aradan qaldırmaqda, həmçinin opioid asılılığının müalicəsində müvəffəqiyyətini göstərib. Dərmanın tərkibindəki maddələrə asılılığın əmələ gəlməməsi ondan daha geniş istifadə edilməsinə imkan yaradır, preparatın narkotik təsir göstərməsindən sui-istifadənin qarşısını alır.

Opioidlər təbabətdə onların beyin reseptorlarına təsiri sayəsində xroniki ağrıların təcrid edilməsində istifadə olunur. Lakin morfin və buna bənzər maddələr bu zaman beyinin həzz mərkəzini stimullaşdırır ki, bu da bir neçə qəbuldan sonra vərdişə gətirib çıxarır. Statistik göstəricilərə görə, iki milyondan çox insanda məhz keyitmənin bu üsulu nəticəsində asılılıq yaranıb. "AT-121" ağrının aradan qaldırılması zamanı beyinin həzz mərkəzinə heç bir təsir göstərmir və bu, onun əsas üstünlüyüdür ki, preparatı anesteziologiya sahəsində ən perspektivli ixtiraların sırasına çıxarır.

# Xəstə təhlili ilə bağlı müzakirə aparılıb

**Yanvarın 22-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında xəstə təhlili ilə bağlı növbəti müzakirə aparılıb.**





Nevrologiya ixtisası üzrə IV kurs rezidenti Aytən Mürsəlova əvvəlcə "Giyen-Barra Sindromu" barədə qısa məlumat verərək bildirib ki, əmələ gəlmə səbəbləri əsasən bəzi infeksiyalar, peyvəndlər və cərrahi əməliyyatlar olan bu xəstəlik ilk növbədə periferik sinirləri zədələyir: "Yəni immun sisteminin pozulması nəticəsində yaranan bu xəstəlik zamanı bədəndə olan anticisimlər sinirləri zədələməyə başlayır. Nəticədə ətraflarda zəiflik, keyimə, udma və vegetativ, həmçinin ürək ritmi pozulmaları, təzyiqin oynaması kimi bir çox simptomlara rast gəlinir. Xəstəlik 4 həftə ərzində inkişaf edir, sonra isə tədricən yaxşılaşmağa doğru gedir".

Adı çəkilən xəstəliyin epidemiologiyasından da danışan A.Mürsəlova bundan sonra ətraflarında olan zəiflik və keyimə, sərbəst yerişin pozulması, beldə və budlarda ağrılar, ümumi halsızlıq, baş ağrıları, arterial təzyiqin yüksəlməsi şikayətləri ilə klinikaya müraciət edən və hal-hazırda nevrologiya şöbəsində "Giyen-Bara Sindromu" diaqnozu ilə stasionar müalicə alan 46 yaşlı kişinin üzərində aparılan klinik təhlili diqqətə çatdırıb.

O, proqressivləşən əzələ zəifliyi və arefleksiyanı diaqnozu təsdiqləyən əsas əlamətlər kimi səciyyələndirib. Eyni zamanda digər dəstəkləyici əlamətlərə də diqqət yetirildiyini deyərək xəstəyə tətbiq olunan müayinə və müalicə üsulları haqqında da məlumat verib, mövzuyla bağlı sualları cavablandırıb.

Klinik təhlildə professor-müəllim heyəti, həkimlər, rezidentlər iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

Yeni nəşrlər

# “Ümumi kimyadan mühazirələr” adlı dərs vəsaiti

**◆ Əczaçılıq təhsili sistemində tədris olunan digər kimya fənləri ilə yanaşı ümumi kimyanın xüsusi əhəmiyyəti və rolu vardır.**

Ümumi kimya fənni əczaçılıq fakültəsinin I kurs tələbələri üçün bir semestrdə tədris olunur. Bu işçi-tədris planına əsasən məcburi və ardıcıl tədris edilən fənlər siyahısına məxsusdur. Belə ki, özündən sonra tədris olunacaq digər kimya fənləri üçün təməl fənni hesab edilir və əczaçılıq ixtisas fənlərinin tələbələr tərəfindən daha asan mənimsənilməsinə zəmin yaradır. Bu nöqteyi-nəzərdən ümumi və toksikoloji kimya kafedrasının əməkdaşları dosent E.Əhmədov və K.Hüseynquliyeva tərəfindən nəşr olunan “Ümumi kimyadan mühazirələr” adlı dərs vəsaiti istər-istəməz həm tələbələr, həm də həmin fənni tədris edən müəllimlər üçün olduqca vacib və lazımlı bir dərs vəsaitidir. Dərs vəsaiti 147 səhifədən ibarət olub 2018-ci ildə (II nəşr) “Təbib” nəşriyyatı tərəfindən buraxılmışdır. Dərs vəsaiti 2015-ci ildə buraxılan həmin vəsaitin I nəşrindən fərqli olaraq son illərin yeni məlumatları ilə daha da zənginləşdirilmişdir. Bu məsələni müəlliflər öz üzərlərinə götürərək, məqsədə uğurla nail olmuşlar.

Ümumi kimya fənni üzrə tədris proqramına görə 14 saat, yəni 7 mühazirə nəzərdə tutulur. Dərs vəsaitində həmin mühazirə materialları lazımı qaydada təqdim edilir.

Dərs vəsaitində əczaçılıq fakültəsinin tələbələri üçün mütləq lazım olan bütün mövzular haqda asan başa düşülən formada bütün məlumatlar verilmişdir. Kitabda verilmiş ümumi kimya fənninin vəzifələri, atomun quruluşu, dövri qanun, kimyəvi rabitələr haqda məluatlar zamanın tələbinə uyğundur və asan başa düşülür.




Dərs vəsaitində kompleks birləşmələr haqda daha geniş məlumatlar verilmiş və kompleks birləşmələrdə kimyəvi rabitələrin təbiəti haqda müasir nəzəriyyələr sadə bir formada oxucuya çatdırılmışdır.

Tələbə və müəllimlərin istifadəsinə təqdim edilən bu dərs vəsaiti çox şübhəsiz ki, onların ümumi kimya sahəsində bilik səviyyələrini daha da zənginləşdirəcək, növbəti kurslarda tədris olunacaq digər kimya (üzvi, analitik, fiziki və kolloid) və həmçinin ixtisas fənləri üçün daha mükəmməl, əsaslı təməl rolunu ifa edəcək və gənc əczaçı mütəxəssislərin səriştəli, bacarıqlı, savadlı və hərtərəfli yetişməsini həyata keçirəcəkdir. Biz buna əminik.

**Faiq HƏSƏNOV,**
*Ümumi və toksikoloji kimya kafedrasının dosenti*

# Tələbələr arasında şahmat yarışı keçirilib

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi məqsədi ilə şahmat yarışı keçirilib. Yarışda ATU-nun 20 tələbəsi iştirak edib.**



THİK–nin sədri Elvin Kərimlinin bildirdiyinə görə, yarış III turda keçirilib. İlk yerləri tutan qaliblərə – II MPF–nin tələbələri Nisə Bəhramovaya, Fərid Məmmədhüseynova və I MPF–nin tələbəsi Toğrul Abdullayevə qiymətli hədiyyələr təqdim olunub.

E.Kərimlinin sözlərinə görə, tələbələr şahmat yarışından razı qaldığından, onların da istəyini nəzərə alıb bu tipli yaraşları vaxtaşırı təşkil etmək niyyətindədirlər.

# Şahmat ömrü uzadır



**Avstraliya mütəxəssisləri müəyyən ediblər ki, şahmat oynamaq aydın zəka və fəal həyat tərzi tələb edir. Bu amillərin məcmusu şahmatçıların hətta idmanın fiziki növlərinin nümayəndələrindən də çox yaşamasına imkan verir.**

Melburn Universitetinin mütəxəssisləri uzunömürlülüyün reseptini müəyyən ediblər. İdmanın intellektual növləri ilə məşğul olmaq ömrü yeddi il uzadır.

AZƏRTAC “360” kanalına istinadla xəbər verir ki, söhbət, o cümlədən şahmatdan gedir.

Alimlər tədqiqatın gedişində 16 min şahmatçının sağlamlıq durumunu təhlil ediblər. Bu barədə məlumatı şahmat oynamayan adi insanın göstəriciləri ilə müqayisə ediblər. Məlum olub ki, şahmat həvəskarları bu sahədə hətta idmanın fiziki növləri ilə məşğul olan rəqiblərindən də üstündürlər.

# Dünya Səhiyyə Təşkilatı qrip əleyhinə vaksinlərlə bağlı Avropa sakinlərinə müraciət edib

**Dünya Səhiyyə Təşkilatının (DST) Avropa bürosunda mövsümi qrip təhlükəsini xatırladaraq, region əhalisini peyvənd olunmağa və yoluxma halları zamanı dərhal müalicəyə başlamağa çağırıblar. Hər il payız-qış mövsümü ərzində şimal yarımkürəsinin əhalisinin təxminən 20 faizi qripə yoluxur.**

World Health Organization

AZƏRTAC DST-nin mətbuat üçün hazırladığı məlumata istinadla xəbər verir ki, hazırkı mövsümdə Avropada A tipli qripə daha çox rast gəlinir.

Son vaxtlar regionda qripə yoluxma hallarının sayı artıb. DST ekspertləri əmindirlər ki, regionda qripin necə yayılması və virusun hansı dövri ştammlarının üstünlük təşkil etməsi barədə məlumatlar ölkələrə mövsümi qripin pik nöqtəsinə daha yaxşı hazırlaşmağa imkan verir.

“Qrip virusunun insanlarda xəstəlik əmələ gətirən iki tipi mövcuddur – A və B tipi. Hazırda regionda demək olar ki, mövsümi A tipli qripin bərabər nisbətdə 2 alttipi - A(H1N1) və birinci alttipdən çox cüzi üstün olan A(H3N2) dövr edir. B tipli qripə yoluxma hallarının sayı çox cüzidir”, - deyə mətbuat üçün məlumatda bildirilir. Lakin ekspertlər yaxın aylarda bu vəziyyətin dəyişəcəyini istisna etmirlər.

23 dövlətdən daxil olan məlumata görə, ümumilikdə, bu mövsüm qripdən ölənlərin sayı ötən bir neçə ilin analoji dövrü ilə müqayisədə göstəriciləri üstələmir. Lakin bir sıra ölkələrdə yaşlılar arasında qripdən ölüm halları artır.

DST-də bir daha region sakinlərini qrip əleyhinə vaksinlərə laqeyd yanaşmamağa çağırıblar. Həkimlər xatırladıblar ki, qripə yoluxduqdan sonra ağırlaşmaların inkişafının yüksək risk qrupuna yaşlı insanlar, hamilə qadınlar, azyaşlı uşaqlar, zəif immunitetə və xroniki patologiyalara malik insanlar daxildir. DST-də, həmçinin bütün tibb işçilərinə peyvənd etməyi məsləhət görürlər.

DST ekspertləri qrip əleyhinə vaksinlərin regionda dövr edən A tipli (H3N2), A tipli (H1N1) və B tipli bütün qrip viruslarını əhatə edəcəyi qənaətindədirlər.

# Pediatr: Qripin ağırlaşmalarının qarşısını almaq üçün vaxtında həkimə müraciət etmək lazımdır

**“Orthomixoviruses” ailəsindən olan qrip virusunun cinsi influenza tipləri A, B və C-dir. Virusun 135 mümkün kombinasiyasından insanlarda A ($H_1N_1$), A ($H_2N_2$) və A ($H_3N_3$) növlərinə rast gəlinir. A, B və C qripləri antroponozdur, hava-damcı, fekal-oral yollarla ötürülür. Ətraf mühitə zəif davamlıdır. Belə ki, mikrobioloji tədqiqatlar zamanı virus 56°-yə qədər qızdırılanda, qurudulanda, zəif konsentrasiyalı xlor, ozon ultrabənövşəyi şüaların təsirinə məruz qalanda tez məhv olur. Əksinə, aşağı temperaturda, yəni hərarət –25°-dən -70°-dək olarsa, virus uzun müddət qalır. Ona görə də qrip mövsümi xəstəlik adlanır.**

Bu barədə AZƏRTAC-a Əbülfəz Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanasının pediatrı Günay Cavadova məlumat verib.

Pediatr, qripin ağırlıq dərəcələrinə görə tipik formalarının təsnifatı haqqında məlumat verərək deyib: “Təsnifata görə xəstəliyin yüngül formasında insanın hərarəti 38°-yə qədər yüksəlir. Orta-ağır formada temperatur 38,5-39,5° arasında tərəddüd edir. Bu zaman aşkar intoksikasiya, respirator sindromu - traxeit, larinqotraxeit baş verir. Həmçinin ağciyərlərin bir payında seqmentar xarakterli zədələnmələr, ürək-ağciyər çatışmazlıqları qeydə alınır. Ağır və ya toksiki formada isə hərarət 40-40,5°-dək yüksəlir, toksiki ensefalopatiya, damar pozulmaları - hemorragiya şəklində qanaxmalar, o cümlədən qusma, meninqizm, ödem-hemorragik sindrom, yəni hemorragik pnevmoniya, beyin ödemi baş verir. Ağırlıq dərəcəsinə görə isə sonuncu forma ildırımvari, yəni hipertoksik formadır”.

Həkim bildirib ki, qripin fəsadları spesifik və qeyri-spesifik bakterial olur. Spesifik fəsadlara ensefalit, meninqoensefalit, seroz meningit, Giyen-Barre sindromu, yəni ətraflarda hissiyyatın saxlanması ilə gedən əzələlərin periferik iflici, o cümlədən kəskin stenozlaşmış larinqotraxeit - hürücü öskürək, səsin batması, inspirator təngnəfəslik, qırtlağın stenozu aiddir. Bundan başqa, pnevmoniya, miokardit də spesifik fəsadlar sırasına daxildir. Qeyd etməliyəm ki, larinqotraxeit xəstəliyi respublikada yalnız bizim xəstəxanada müalicə olunur.



“Qeyri-spesifik ağırlaşmalar zamanı pnevmoniya, lor orqanların zədələnməsi, yəni otit, sinusit müşahidə edilir. Həmçinin sidik kisəsinin zədələnməsi - sistit, böyrək ləyənlərinin zədələnməsi - pielit də qeydə alınır.

Ağciyərdən kənar ağırlaşmalar zamanı isə Reye sindromu- qaraciyərin zədələnməsinə, Qasser sindromuna, Hemolitiko-uremik sindromu-böyrəyin zədələnməsinə, Uoterxauz-Frideriks sindromu-böyrəküstü vəzin zədələnməsinə, Kişş toksikozu-kəskin koronar çatışmazlığa rast gəlinir. Ağırlaşmaların qarşısını almaq üçün vaxtında həkimə müraciət edilməlidir”, - deyə G.Cavadova bildirib.

Pediatr qripə yoluxmamaq üçün soyuqdan qorunmağı, gigiyenik qaydalara əməl etməyi, orqanizmin immun sistemini möhkəmləndirən qidalar, meyvə tərəvəzlər, təbii şirələrin qəbulunu çoxaltmağı, ehtiyac yarandıqda isə virus əleyhinə dərmanlardan istifadə etməyi məsləhət görüb.

Mütəxəssis ötən ilin noyabrında Rusiyanın Sankt-Peterburq şəhərində uşaqlarda infeksion xəstəliklərə dair keçirilən maarifləndirici seminarda iştirak etdiyini və orada qripin yeni təsnifatı barədə məlumat verildiyini də diqqətə çatdırıb.

**ATU-nun mətbuat xidməti**

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

**KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN**
**MÜSABİQƏ ELAN EDİR**

**Kafedraların müdirləri:**

- II mamalıq və ginekologiya kafedrası
- Tibbi fizika və informatika kafedrası

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-10-08

# Zirinc: dadı turş olsa da, çox faydalıdır

**Zirinc qədim zamanlardan bəri tanınan və istifadə edilən bitkidir. Hələ qədim Babilistanda və Hindistanda yerli sakinlər zirinc meyvələrini qanı təmizləyən, Tibet monastrlarını idarə edən kahinlər isə ömrü uzadan vasitə hesab ediblər. Qədim slavyan təbiblərinin zirinc kökləri və qabığından hazırladığı cövhər isə soyuqdəymə və qanaxmalarda tətbiq olunurdu. Onun meyvə, kök, gövdəsi vasitəsilə yun və dəri məmulatları sarı rəngə boyanırdı.**



AZƏRTAC xəbər verir ki, tikanlı və yarpağını tökən kol bitkisi olan zirincin xırda çəlləyi xatırladan meyvələri qırmızı rəngdədir. Qurudulanda rəngi tündləşir. Turş dadına və faydalı xüsusiyyətlərinə görə onu bəzən "şimal limonu" da adlandırırlar.

Xalq təbabətində bitkinin meyvə, yarpaq, qabıq və köklərindən də müalicə vasitəsi kimi istifadə olunur. Meyvələrinin şirəsi qızdırmasalıcı, mikrob əleyhinə, qankəsici təsir göstərir. Bu bitkidən toksinlərin xaric edilməsi, orqanizmin təmizlənməsi və yaşlanma prosesini ləngitmək üçün də istifadə edirlər. Bitki həzm vəzlərinin sekresiyasını artırır, iştahanı və həzmi yaxşılaşdırır, hipoasid qastrit zamanı müşahidə olunan həzmsizlik və köp əlamətlərini aradan qaldırır. Zirincin təzə meyvələrinin yeyilməsi və ya şirəsinin içilməsi qaraciyər xəstəliklərinin, revmatizm, bəzən də sidik kisəsi və böyrəklərin iltihabının müalicəsində yaxşı nəticə verir. Ürək vurğularının sayını azaltdığı və arterial təzyiqi aşağı saldığı üçün hipertoniya və taxiaritmiya zamanı da tətbiq olunur.

Tibdə zirincin spirtli çıxarışı hepatitlərin, öd daşı xəstəliyinin müalicəsində və uşaqlıq qanaxmasının qarşısını almaq məqsədilə tətbiq olunur. Ev şəraitində həmin cövhəri hazırlamaq çox asandır. Bunun üçün 20 qram zirinc yarpağı 100 qram 70 faizli spirtdə 15 gün müddətində isti və quru yerdə saxlanılır. Alınan tünd-sarı rəngli cövhərin turşməzə dadı olur. Onun qəbulunu ən çox fibroma zamanı və abortdan sonra baş verən qanaxmalarda səmərəli vasitə sayırlar.

# Zəncəfil əsl dərman vasitəsi hesab edilib



Tədqiqatçılar zəncəfilin kökünə hipertoniklərə və diabet xəstələrinə tövsiyə edilə biləcək potensial vasitə kimi baxırlar.

AZƏRTAC "meddaily.ru" saytına istinadla xəbər verir ki, eksperiment zəncəfil kökünün ikinci tip diabet xəstələrinin qanında şəkərin miqdarına uzunmüddətli nəzarəti yaxşılaşdırdığını göstərib.

Məlum olub ki, zəncəfil ekstraktı serotonin reseptorları ilə qarşılıqlı fəaliyyət göstərərək, onların insulin sekresiyasına təsirini gücləndirir. Bütövlükdə, zəncəfil sayəsində qanda qlükozanın səviyyəsi 35 faiz azala, insulinin səviyyəsi isə 10 faiz arta bilər.

Bununla yanaşı, zəncəfil kökü qanı durulaşdıraraq qatılığını aşağı salır. Beləliklə, damarlarda qanın axması yaxşılaşır, onların xolesterin yığınlarından təmizlənməsi prosesi tənzimlənir. Nəticədə tromboz riski azalır. Həmçinin qanın yaxşı axması və yığınlardan təmizlənmiş damarların elastikliyi hesabına arterial təzyiq aşağı düşür.

# Yerkökü pəhrizi arıqlamağa kömək edir

**Başqa karbohidrat pəhrizlərində olduğu kimi, yerkökü pəhrizinin əsas xüsusiyyəti orqanizmdə hər gün yeni və daim yeniləşən hüceyrələr əmələ gətirməsi, həmçinin hormon və fermentlərin sintezi üçün vacib olan zülal yaratmasıdır.**



Yerkökünün tərkibində artıq çəkinin qarşısını almaqda vacib rol oynayan yod və sellüloza çoxluq təşkil edir. Əvvəlcə yerkökünü səliqə ilə yumaq və xüsusi bıçaqla təmizləmək lazımdır. Bitkinin üst qatında faydalı m addələr toplandığına görə onun qabığını nazik soyanda həmin maddələr itkiyə getmir. Cavan yerkökünü soymadan, axar su altında şotka ilə tərtəmiz yuyaraq istifadə etmək daha yaxşıdır.

Meyvəköklərini çiy halda yemək çox faydalıdır. Tərkibində təbii sellüloza olduğuna görə, yerkökü pis həzm olunur və ondan, əsasən, salatlara qatqı şəklində istifadə edilir. Yerkökündən hazırlanan şirə də çox faydalıdır. Diyetoloqlar yerkökünü termik şəkildə hazırlamağı məsləhət görmürlər.

On gün qəbul edilən yerkökü pəhrizi çox sadə və primitivdir. Həmin müddətdə yalnız yerkökü və xama yeyilir. Böyük həcmdə yerkökü sürtgəcdən keçirilir və bir az xama əlavə edilərək gün ərzində yeyilir. Sutkada bir dəfə bişmiş yerkökü hazırlanaraq qəbul edilir. Yerkökünün tərkibində orqanizmdən toksin və xolesterin çıxaran təbii sellüloza çəkini azaltmağa kömək edir. Həmin pəhrizə əməl etdikdə minimum 5 kiloqram çəki itirmək mümkündür. Onun qəbulu babasilin müalicəsində mühüm rol oynayır. Enterit və kəskin formada mədə xorası olmadıqda da hər gün yerkökü şirəsi içmək olar. Vitamin qıtlığı zamanı yerkökünü qida ilə qəbul etmək faydalıdır. 100 qram yerkökü şirəsi sutka normasını təmin edir. Lakin şirənin çox qəbul edilməsi dərinin saralmasına səbəb ola bilər. Körpələrə yerkökü şirəsini ikinci-üçüncü aydan sonra bir neçə damcı su ilə qarışdırıb vermək olar.

Yerkökü pəhrizindən mədə-bağırsaq sistemi xəstəlikləri zamanı, hamiləlik və laktasiya zamanı istifadə etmək yolverilməzdir.

Pəhrizin ziyanlı cəhəti qidada zülalın uzun müddət olmamasıdır. Zülal qıtlığı nəticəsində orqanizmdə əzələ toxumalarının azalması baş verir.

# Ölkəmizdə hər on min nəfərə 33 həkim və 55 tibb işçisi düşür

**Keçən il ölkəmizdə 47 tibb müəssisəsində təmir-tikinti işləri aparılıb. Onlardan 9-u paytaxtda, 36-sı isə regionlardadır.**



Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, il ərzində Elmi Tədqiqat Bərpa İnstitutu, Respublika Narkoloji Mərkəzi, Naftalan, Quba rayon Mərkəzi xəstəxanaları əsaslı təmir-tikinti işlərindən sonra ən müasir tibbi avadanlıqlarla təchiz edilərək əhalinin istifadəsinə verilib.

Həmin mənbədən verilən məlumata görə, bu ilin əvvəlində ölkəmizdə 32,3 min həkim və 53,8 min orta tibb işçisinin çalışdığı 567 xəstəxana və 1740 ambulator-poliklinika müəssisəsi fəaliyyət göstərir. Ölkədə əhalinin hər on min nəfərinə orta hesabla 33 həkim və 55 orta tibb işçisi düşür.

## Etibarsız sayılır

İctimai səhiyyə fakültəsinin II kurs, $617^{a-2}$ qrup tələbəsi İbrahimova Aydan Vüqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Abbasov Namiq Mürvət oğluna 1998-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Həsənov Rövşən Heydər oğluna 2011-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən endokrinologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Dadaşova Gülnarə Rəhimağa qızına 1980-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi qəzetin baş redaktoru Eldar İsmayıla əmisi
**Əhməd İsmayıl oğlunun**
vəfatından kədərləndiyini bildirir və dərin hüzünlə başsağlığı verir.

"Təbib" qəzetinin kollektivi iş yoldaşları Mirağa Cavadova qaynatası
**Vəli müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüzünlə başsağlığı verir.

Kommunal və qidalanma gigiyenası kafedrasının əməkdaşları insan anatomiyası və terminologiya kafedrasının müdiri, professor Vaqif Şadlinskiyə qardaşı
**Azər Şadlinskinin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə başsağlığı verirlər.

ETM-in kollektivi, iş yoldaşları patoloji proseslərin modelləşdirilməsi şöbəsinin kiçik elmi işçisi Gülşən Hacıyevaya həyat yoldaşı
**Azər Abdullayevin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ETM-in və "Təbib" qəzetinin kollektivi , kommunal və qidalanma gigiyenası kafedrasının əməkdaşları ETM-in bioloji fəal maddələrin sintezi şöbəsinin baş elmi işçisi, dosent Şimid Qasımova qardaşı
**Qasımov Şəfəq Hüseyn oğlunun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə başsağlığı verirlər.

Ailə təbabəti kafedrasının kollektivi Səidə xanıma həyat yoldaşı
**Fərhad Ələsgərovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Histologiya, embriologiya və sitologiya kafedrasının kollektivi kafedranın baş müəllimi İradə Əliyevaya qaynanası
**Məsmə xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Histologiya, embriologiya və sitologiya kafedrasının kollektivi kafedranın asisstenti Solmaz Abdullayevaya kürəkəni
**Namiq müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Fizioterapiya və tibbi reabilitasiya kafedrasının əməkdaşları kafedranın assistenti Tamilla Quliyevaya həyat yoldaşı
**Quliyev Elşad Tağı oğlunun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^c$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200